İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA
MƏRKƏZİ

Sentyabr 2017

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI



## Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələrinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı




Azərbaycan Respublikası Prezidenti, cənab İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələrinin fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 5 sentyabr tarixli müvafiq Fərman imzalanmışdır.

Fərmana əsasən, Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələrinin fəaliyyətinin təmin edilməsi məqsədilə onların aparatlarının təsis edilməsi nəzərdə tutulur ki, burada struktur vahidi olaraq sözügedən nümayəndəliklər Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tərkib hissəsi kimi fəaliyyət göstərəcəklər. Belə ki, İqtisadiyyat Nazirliyi ticarət nümayəndələrinin aparatlarının işçilərinin sayını və ştat cədvəllərini ticarət nümayəndələrinin təyin olunduğu səfirlik və ya konsulluqlar üzrə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birgə təsdiq etməklə yanaşı, eyni zamanda, aşağıda göstərilən funksiyaların da həyata keçirilməsini təmin edəcəkdir:

- ticarət nümayəndələrinin aparatlarının işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;
- ticarət nümayəndələrinin aparatlarının maddi-texniki və maliyyə təminatı.

Eyni zamanda, Fərmana əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən aşağıda göstərilən tədbirlərin həyata keçirilməsi təmin ediləcəkdir:
- ticarət nümayəndəsi və onun aparatı haqqında əsasnamənin və aparatın nümunəvi strukturunun bir ay müddətində təsdiq edilməsi;
- ticarət nümayəndələrinə və onların aparatlarının işçilərinə təminatların verilməsi qaydasının bir ay müddətində təsdiq edilməsi;
- ticarət nümayəndələrinin və onların aparatlarının işçilərinin əməkhaqlarının gəlir vergisindən azad edilməsi ilə bağlı qanun layihəsinin bir ay müddətində hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi;
- ticarət nümayəndələrinin aparatlarının işçilərinin və onların ailə üzvlərinin xidməti pasportla təmin edilməsinə dair təkliflərin bir ay müddətində hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi;
- ticarət nümayəndələrinə səlahiyyətlərinin icrası ilə bağlı təmsilçilik xərclərinin ödənilməsinə dair təkliflərin hazırlanaraq bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi;
- ticarət nümayəndələrinin və onların aparatlarının işçilərinin dövlət qulluqçusu kimi fəaliyyətinin təmin edilməsi məqsədilə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi ilə bağlı qanun layihəsinin iki ay müddətində hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi;

Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin aktlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılması, və eyni zamanda, bu Sərəncamdan irəli gələn məsələlərin həll edilməsi də Azərbaycan Respublikası Nazirlər Kabinetinə verilən tapşırıqlar arasında öz əksini tapmışdır.

Qeyd edilənləri nəzərə alaraq burada onu vurğulamaq yerinə düşər ki, Azərbaycan Respublikasının xarici ölkələrdə akkreditasiya olunmuş səfirlik və konsulluqlarının xəttilə ixracın genişləndirilməsi və investisiyaların cəlb edilməsi istiqamətində institusional təkmilləşdirməyə dair davamlı tədbirlərin həyata keçirilməsi hər bir zaman dövlət siyasətinin tərkib hissəsi olaraq diqqət mərkəzində olmuşdur. Dövlət başçısı tərəfindən imzalanmış 05 sentyabr 2017-ci il tarixli "Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələrinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı da məhz bu siyasətin tərkib hissəsi olaraq qiymətləndirilməlidir.

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"ndə də qeyd edildiyi kimi, Azərbaycan Respublikasının iqtisadi inkişaf baxımından regionun lider dövlətindən beynəlxalq iqtisadi münasibətlər sistemində yüksək rəqabətqabiliyyətli iştirakçı statusuna yüksəlməsi reallaşdırılacaq planlar arasında yer almaqdadır. Bu məqsədlə, ölkənin əlverişli coğrafi mövqeyi, geniş potensialı nəzərə alınaraq, ölkənin regionun ticarət mərkəzinə çevrilməsi, qeyri-neft sektoru üzrə adambaşına düşən ixrac həcminin 2025-ci ilə qədər 450 ABŞ dollarına çatdırılması planlaşdırılır. Bu isə o deməkdir ki, dövrün sonunda Azərbaycanın qeyri-neft ixracı 5 milyard ABŞ

dollarına çatdırılaraq, hazırki qeyri-neft ixracı həcmindən təxminən 4-5 dəfə çox artırılmalıdır. Eyni zamanda, əgər ticarət əlaqələrinin inkişafı inersiya üzrə davam edərsə, onda Azərbaycanın ixracının əsasən Avrasiya İttifaqı və Avropa İttifaqı istiqamətində artacağını proqnozlaşdırmaq mümkündür. Hərçənd ki, burada ixracın geo-strateji və coğrafi şaxələndirilməsi tələb olunur ki, hansısa bazardan asılılıq yaranmasın. Ənənəvi bazarlarda mövqelər qorunmaqla yanaşı, xüsusən də, yeni bazarlara – Cənub-Şərqi Asiya, Mərkəzi Asiya, Körfəz ölkələri, Latın Amerikası və Afrika bazarlarına – çıxış təmin edilməlidir. Bunun üçün isə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ixrac potensialı olan məhsulların (məsələn, meyvə-tərəvəz və bostan bitkiləri, alüminium, kimya məhsulları, içkilər, ərzaq məhsulları və s.) siyahısını tərtib edərək ölkəmizin xaricdə akkreditasiya edilmiş səfirliklərinə (həmçinin, AZPROMO-nun nümayəndəliklərinə) təqdim etməlidir. Beləliklə, Azərbaycan Respublikasının qeyri-neft sahəsində geo-iqtisadi ixrac xəritəsinin hazırlanması həyata keçirilmiş olacaqdır. Belə bir xəritənin olması isə bütün institutsional resursların eyni istiqamətdə cəmləşdirilməsi və hədəfə yönəlik səmərəli istifadəsinə zəmin yaradacaqdır.

Burada xüsusilə qeyd etmək yerinə düşər ki, beynəlxalq arenada ixracın genişləndirilməsi və investisiyaların cəlb edilməsi üzrə tətbiq edilmiş təşviq siyasəti təcrübələrinin öyrənilməsi onu deməyə əsas verir ki, ixracın təşviqinə çəkilən hər 1 ABŞ dolları xərc ixrac həcmini 40 ABŞ dolları qədər artırmaqdadır . Qeyd edilənləri nəzərə alaraq, imzalanmış son Fərman çərçivəsində icra mexanizminin effektiv şəkildə təşkil edilməsi vasitəsilə, Azərbaycan ixracın genişləndirilməsi və investisiyaların cəlb edilməsi istiqamətində xarici ölkələrdəki akkreditasiya olunmuş səfirliklərinin xəttilə böyük işlər görülməsinə nail ola bilər.

## Mövcud vəziyyət

Hazırda Azərbaycan Respublikasının ölkə hüdudlarından kənarda iqtisadi maraqlarını əsasən xaricdəki aşağıdakı institutlar təmsil edir:

1. **Azərbaycan Respublikasının xaricdəki səfirlikləri.** Əsasən iri ölkələrdəki səfirliklərdə, məsələn, Azərbaycan Respublikasının ABŞ-dakı, Çindəki, Rusiya Federasiyasındakı və Böyük Britaniyadakı səfirliklərində, xüsusi olaraq iqtisadi məsələlərə cavabdeh olan diplomatlar fəaliyyət göstərsə də, digər ölkələr üçün bunu demək çətindir. Ümumilikdə, Azərbaycan Respublikasının xaricdəki səfirlikləri ölkənin həm də iqtisadi maraqlarını təmsil edirlər;

2. **Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO)** – İqtisadiyyat Nazirliyi tərəfindən 2003-cü ildə təsis edilmişdir. AZPROMO-nun aşağıda göstərilən 7 xarici ölkədə nümayəndəlikləri fəaliyyət göstərir: Qazaxıstan, Gürcüstan, ABŞ, Almaniya, Avstriya, BƏƏ və Böyük Britaniya. Əldə olunmuş razılığa görə AZPROMO-nun xarici nümayəndəliklərinə SOCAR tərəfindən maliyyə və təşkilati dəstək verilir;

3. **SOCAR**-ın transmilli şirkətə çevrilməsi aşağıdakı xarici şəhərlərdə nümayəndəliklərinin açılmasına zəmin yaratmışdır: İstanbul, Tehran, Astana, Buxarest, Frankfurt, Cenevrə, London, Vyana, Tbilisi və Kiyev. Bundan başqa SOCAR-ın Gürcüstan, İsveçrə və Türkiyə kimi ölkələrdə törəmə şirkətləri fəaliyyət göstərir. Bu nümayəndəliklər əsasən SOCAR-ın iqtisadi maraqlarını təmsil etməklə yanaşı, həm də Azərbaycan Respublikasından qeyri-neft ixracının stimullaşdırılması, ölkəmizə xarici investisiya cəlbi və digər iqtisadi maraqların təmin edilməsində geniş potensiala malikdir.

4. Azərbaycanda özəl sektorda fəaliyyət göstərən **şirkətlərin xarici ölkələrdəki nümayəndəlikləri** daha çox korporativ maraqlara xidmət göstərirlər.

5. **Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası** aşağıdakı beynəlxalq təşkilatlara üzv olmaqla dövlətin iqtisadi maraqlarını təmsil edir: Avropa Palataları Assosiasiyası, İslam Ticarət və Sənaye Palatası, İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM ölkələri Ticarət və Sənaye Palataları Şurası, MDB Ölkələrinin Ticarət və Sənaye Palataları Şurası və s.;

## Fərmandan irəli gələn potensial təsir imkanları

Azərbaycan Respublikasının ölkə hüdudlarından kənarda iqtisadi maraqlarının təmsilçiliyində müxtəlif institutların olması fərqli əməkdaşlıq platformalarının

mövcudluğu baxımından obyektiv qiymətləndirilsə də, sözügedən Fərman vasitəsilə təsdiq olunmuş bəzi institusional təkmilləşdirmələrin həyata keçirilməsi ixrac potensialının genişləndirilməsi və investisiyaların cəlb edilməsi istiqamətində müsbət rol oynayacaqdır. Burada, eyni zamanda Fərmanın effektiv icrasını təmin etmək məqsədilə, bir sıra faktorların nəzərə alınması reallaşdırılacaq tədbirlər sırasında öz əksini tapması gözləniləndir:

- Belə ki, Azərbaycan Respublikasının xaricdəki səfirliklərinin rəhbərliyi əsasında bütün mövcud təmsilçiliklər arasında Azərbaycan Respublikasından ixracın təşviq edilməsi və ölkəmizə investisiya cəlbi istiqamətində fəaliyyətlərin əlaqələndirilməsi, təkrar fəaliyyətlərin aradan qaldırılması və tamamlayıcı fəaliyyətlərin sistemləşdirilməsinə zəmin yaratmış olacaqdır. Məsələn, Çexiyanın Sənaye və Ticarət Nazirliyinin CzechTrade agentliyinin 47 ölkədə təmsilçiliyi var. Bununla yanaşı Çexiyanın xaricdəki səfirliklərinin müvafiq Ticarət və İqtisadiyyat bölmələri (Commercial and Economic Section) fəaliyyət göstərirlər. Hər iki qurum xaricdəki fəaliyyətlərini koordinasiya edirlər. Təcrübədə CzechTrade agentliyinin xaricdəki nümayəndəliklərinin bu ölkənin səfirlərinin rəhbərliyi altında fəaliyyət göstərməsi müşahidə edilir. SOCAR və AZPROMO-nun təmsil olunmadığı, amma Azərbaycan üçün qeyri-neft ixracı baxımından əhəmiyyət kəsb edən ölkələrdə fəaliyyət göstərən səfirliklərimizdə iqtisadi məsələlərə cavabdeh olan diplomatların təyin edilməsi bu prosesin daha da sürətləndirilməsinə baxımından müsbət rol oynayacaqdır;

- Fərman mühüm yeni bazarlar – xüsusilə, Cənub-Şərqi Asiya, Körfəz ölkələri, Latın Amerikası və Afrika bazarlarında təmsilçi institutların gücləndirilməsinə xidmət edəcəkdir. Məsələn, Cənubi Koreya, Birləşmiş Ərəb Əmirlikləri, Braziliya, İtaliya, Avstraliya, Misir Ərəb Respublikası, Cənubi Afrika Respublikası və s. kimi ölkələrdə olan səfirliklərdə birbaşa iqtisadi məsələlərə cavabdeh olan diplomatların təyin edilməsi Azərbaycan Respublikasının xarici iqtisadi maraqları baxımından əhəmiyyətli rol oynayacaqdır;

- AZPROMO-nun fəaliyyətinin genişləndirilməsi baxımından xarici ölkələrdəki nümayəndəliklərimizlə daha geniş əməkdaşlıq imkanlarının yaradılması da ölkəmizin ixrac potensialının genişləndirilməsi və investisiyaların cəlb edilməsinə xidmət edəcəkdir. Rusiya, Türkiyə, Çin və İran kimi qeyri-neft ixracımızda prioritet təşkil edən ölkələrdə AZPROMO-nun fəaliyyət dairəsinin həmin ölkələrdəki səfirliklərimizlə koordinasiya edilərək genişlənməsi və gücləndirilməsi qarşıya qoyulmuş məqsədlərə nail olunmasında əvəzsiz rol oynayacaqdır. Məsələn, İsrailin Sənaye, Ticarət və Əmək Nazirliyinin Xarici Ticarət Administrasiyası ticarət, ixrac və xarici sərmayələrin cəlbini təşviq edən orqan olmaqla bütün dünyada iqtisadi nümayəndələr şəbəkəsinə malikdir. Sözügedən nazirlik İsrailin xaricdəki səfirliklərində ticarət attaşesi (Commercial Attaché) təyin etməklə xarici investisiyanın cəlbi və ixracın təşviqi istiqamətində işlər görür. İxracyönümlü iqtisadiyyat qurmuş Malayziyanın təcrübəsi də Azərbaycan üçün cəlbedici sayıla bilər. Məsələn, AZPROMO xaricdə cəmi 7 nümayəndəliyə malik olduğu halda, Malayziyanın müvafiq MATRADE agentliyi (Malaysia External Trade Development Corporation) 40 xarici şəhərdə təmsil olunmaqdadır;

- Fərman, eyni zamanda, Azərbaycan üçün mövcud ola biləcək potensial iqtisadi imkanların diplomatlar tərəfindən yerində daha dərindən öyrənilməsinə xidmət edəcəkdir. Məsələn, İran İslam Respublikasına (İİR) qarşı sanksiyaların yumşaldılması Azərbaycan Respublikasından bu ölkəyə ixrac həcminin artırılması üçün geniş potensialın olduğunu göstərir. HuffingtonPost-un yazdığına görə hətta sanksiyalar altında belə 2012-ci ildə İranın ərzaq bazarı 75 milyard ABŞ dolları, paltar bazarının həcmi 20 milyard ABŞ dolları və turizm sektorunun həcmi 18,5 milyard ABŞ dolları həcmində qiymətləndirilmişdir. Sanksiyalardan sonra İranın artması gözlənilən neft gəlirləri, xaricdəki dondurulmuş aktivlərin İrana qaytarılması və xarici sərmayə axını İranda xarici valyuta artıqlığı, yerli valyutanın bahalaşması, qiymətlərin artması və alıcılıq qabiliyyətinin yüksəlməsilə müşahidə olunacaqdır. Bu mənada ixracın təşviqi üçün Azərbaycan Respublikasının İİR-dakı səfirliyinin iqtisadi əlaqələrdəki rolunun gücləndirilməsi və müvafiq diplomat kadrlarla təminatı əhəmiyyətli rol oynayacaqdır;

• Azərbaycan Respublikasının bəzi inkişaf etmiş ölkələrdəki səfirliklərində, məsələn, Yaponiyadakı səfirlikdə iqtisadi məsələlər və mətbuatla əlaqələr birlikdə bir diplomata (birinci katibə) həvalə edilmişdir. Belə mühüm iqtisadi əməkdaşlıq potensialına malik ölkələrdə iqtisadi məsələlərə cavabdeh olan ayrıca diplomatın fəaliyyət göstərməsi və eyni zamanda bu cür kadrların sırf iqtisadi maraqların daha effektiv təmsil olunmasına istiqamətləndirilməsi ixracın və investisiyaların təşviq edilməsində müsbət rol oynayacaqdır.

Belə ki, Türkiyə təcrübəsinə nəzər yetirsək, hətta iri ticarət partnyoru olan ölkələrdə, məsələn, Türkiyənin ABŞ-dakı səfirliyində fəaliyyət göstərən 10 ofisdən 4-ü bilavasitə iqtisadi münasibətlərə cavabdehdir: Ticarət Müşavirliyinin Ofisi; Mədəniyyət və Turizm Müşavirliyinin Ofisi; İqtisadiyyat Müşavirliyinin Ofisi; Aqrar Müşavirliyin Ofisi. Bu təcrübədən istifadə edərək, məsələn, ölkəmizin ən iri qeyri-neft ticarət partnyoru Rusiyadakı Azərbaycan səfriliyində pilot olaraq İqtisadiyyat Müşavirliyi yaratmaq mümkündür. Sonradan özünü doğruldacağı halda bu təcrübəni digər iri səfirliklərimizdə də tətbiq etmək olar;

• Azərbaycan Respublikasının xaricdəki səfirliklərinin internet resurslarında (veb səhifə, bloq, Twitter səhifəsi və s.) İqtisadiyyat Nazirliyinin AZPROMO və Azərbaycan İnvestisiya Şirkətinin tanıdılması, habelə səfirliklərin fəaliyyət göstərdikləri ölkələr üzrə investorların maraq dairələrinə uyğun olaraq hazırlanmış spesifik investisiya layihələri barədə müvafiq informasiyaların yerləşdirilməsi görüləcək tədbirlər arasında nəzərdə tutulmuşdur ki, bu da öz növbəsində ölkəmizə potensial investisiyaların cəlb edilməsində öz rolunu oynayacaqdır. Qeyd etmək lazımdır ki, bu tipli yanaşma bir sıra qabaqcıl ölkələrdə, misal olaraq, İsraildə geniş yayılmışdır;

• Sözügedən Fərman üzrə, müvafiq istiqamətlərdə ixtisaslı kadrların yetişdirilməsi prosesinə Azərbaycanda fəaliyyət göstərən təhsil ocaqlarının cəlb olunması, misal olaraq, ADA Universitetində iqtisadiyyatyönümlü diplomatların hazırlanması fəaliyyətinin daha da gücləndirilməsi, nəinki qeyri-neft ixracının artırılması və investisiyaların cəlb edilməsi sahəsində qarşıya qoyulan məqsədlərə çatmaqda mühüm əhəmiyyət kəsb edəcək, eyni zamanda, bu istiqamətlərdə beynəlxalq standartlar çərçivəsinə uyğun olaraq formalaşdırılmış insan kapitalı bazasının daha da inkişaf etdirilməsinə xidmət göstərəcəkdir.

www.iqtisadiislahat.org

www.ereforms.org

www.ecoreform.az

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073

info@ereforms.org

(+994)12 5213318

/ iqtisadiislahat